**Bütün xalqlara bağışlanma xahişi ilə açıq məktub**

Bir qədər səbirli olmanızı xahiş edirəm, çünki sizinlə bölüşəcəyim bu sözlər çoxdan ürəyimdədir. Ümidvaram ki, fikrimi tam izah edə biləcəyəm. Düşünürəm ki, bu, təkcə mənə aid deyil; sizin də bunu eşitməyə ehtiyacınız var. Ola bilsin, dünyanın başqa yerlərində də elə məsihçilər var ki, bu məktubu oxuduqdan sonra üzr diləməyə cəsarət tapacaqlar. Diqqətinizə və ayırdığınız vaxta görə sizə minnətdaram və bunu yüksək qiymətləndirirəm.

**Dünyanın müxtəlif ölkələrində yaşayan əziz insanlar!**

Mən adi bir insanam, əslində, heç kiməm. Atam vaiz və missioner olub. Uzun illər boyu tətillərimi Müqəddəs Kitab məktəblərində, yay düşərgələrində, gənclər üçün xizək gəzintilərində, kukla tamaşalarında, xeyriyyə tədbirlərində, xor turlarında və digər yerlərdə keçirmişəm. Hətta məsihçi kollecində oxuyub diplom almışam. Sonra isə biznes aləmində idim; iyirmi il ərzində ondabirləri verir, komitələrin yığıncaqlarında, seminar və konfranslarda, həmçinin digər tədbirlərdə iştirak edir, uşaqlar üçün təşkil olunmuş Müqəddəs Kitab məktəbində dərs deyirdim. Hətta həyat yoldaşımla da kilsədə subaylar üçün keçirilən görüşlərin birində tanış olmuşam. Pis adam deyiləm; həmişə ləyaqətli davranmışam və imkan daxilində xeyriyyə işləri görmüşəm; demək olar ki, insanlar məni sevirlər.

Amma bu yaxınlarda mən İsanı daha dərindən tanımağa çalışdım və indiyə qədər heç vaxt fikir vermədiyim bir şey birdən məni ciddi şəkildə narahat etməyə başladı. Ətrafda baş verənlərə diqqət yetirdim və burada qurduğumuz hər şeyin mənasız olduğunu gördüm. Aydın oldu ki, başqasının bu barədə danışıb-danışmamasından asılı olmayaraq, öz iştirakıma görə məsuliyyəti üzərimə götürməli, ürəyimdəkiləri ifadə etməliyəm.

Gəlin başlayaq...

Başa düşürəm ki, siz məsihçiləri ikiüzlülərin böyük yığıncağı hesab edirsiniz. Əsl "mömin" olduğumuzu, eləcə də, sizdən fərqli olaraq, cənnətə getdiyimizi iddia edirik; sonra isə baqajında kiçik balıq loqotipləri olan böyük parlaq maşınlarımızla tində oturan evsizin yanından keçərək sürətlə sizi ötürük.
**Bütün** var-dövlətinizi paylamalı olduğunuzu öyrədən Müqəddəs Kitabı Allahın sözü hesab etməyimizə baxmayaraq, orta hesabla pulumuzun cəmi 2%-ni kilsələrə və xeyriyyə təşkilatlarına veririk. Hamı kimi, biz də böyük televizorlar və motorlu qayıqlar, xəz paltolar və kosmetika alırıq, futbolçuların fotolarını toplayır, internetdə porno izləyirik. Bəlkə də, daha çoxunu edirik. Yəqin ki, siz məsihçi rəhbərlərin məhkəmələrə və ya həbsxanalara düşdüyü, yaxud müxtəlif əxlaqsızlıq qalmaqallarına qarışdıqları barədə eşitmisiniz.
Bəli... siz haqlısınız. Bütün bunların günahkarı bizik. Bunların hamısını etmişik. Mən çox üzr istəyirəm.
Aşağı səviyyəli televiziya verilişlərində sağlam cavanların pul istədiyini görürsünüz və bunun nə isə çox alçaq və yanlış bir şey olduğunu başa düşürsünüz. Verilişlərini efirdə saxlamaq üçün sizi onlara ianə verməyə məcbur edirlər. İsanın adından bir əyləncə kimi istifadə etməyə haqqımız varmı? Kimi aldadırıq? Bəs onda İsa haradadır? Biz Ona güvənməli deyilikmi? Onun iradəsini yerinə yetiririksə, O bizi tam təmin etmirmi?
Bəs fədakarlıq, əzab və kasıblara kömək? Bu fikir məni çox narahat edir. Mən heç də inanmıram ki, kilsə rəhbərlərinin hamısı pis insanlardır; onların arasında bir çox zəhmətkeş, xeyirxah, məhəbbətli və qayğıkeş insanlar var ki, onlar öz icmalarında ehtiyacı olanlara, həqiqətən, yardım göstərirlər. Onlardan bəziləri dərrakəlidirlər və İsanı sevirlər. Əminəm ki, bu pastorlar bahalı maşın sürmür, çox milyonluq malikanələrdə yaşamır və ya şəxsi təyyarələrdə

uçmurlar! Doğrudan da, biz hansı “tanrıya” ibadət edirik? Pula? Mənliyimizə? Hakimiyyətə?
Hər yerdə nəhəng, parlaq yeni kilsə binalarımızı görürsünüz. Üzr istəyirəm, amma, bəlkə də, kilsənin avtodayanacaq sahəsini artırmaq üçün sizi evinizdən köçürən bizik. Eyni yol ayrıcının dörd küncündə dörd fərqli məsihçi imanlılar cəmiyyətinin nəyə lazım olduğunu başa düşmürsünüz. Kilsələrimizdə uşaq meydançaları, boulinq və basketbol meydançaları var. Kilsələrdə “Starbucks” kafeləri var. Kilsələrdə orkestrlərimiz, nəhəng çilçıraqlarımız, kilsə binalarının qarşısında fəvvarələrimiz var. Kitab dükanlarımız hər cür dini “zibil” ilə doludur. Bəs İsa haradadır? Bütün bunları O istəyirdimi?
Şübhəsiz ki, hər yerdə yaxşı insanlar var və hər kilsə belə bir qarışıqlıq içində deyil, lakin "bir Bədən" olduğunu iddia edənlər məhz məsihçilərdir. Belə çıxır ki, bütün bunlara son qoymamaqda hətta yaxşı insanların da günahı var. Biz bir-birimizi islah etməli, ayrılıqların, fitnələrin, tamahkarlığın, bütpərəstliyin və bir çox başqa şeylərin qarşısını almalı idik. Biz, əslində, çox biabır olmuşuq! Bizdə 33 min məzhəb var və bunların əksəriyyəti bir-biri ilə ünsiyyət etmək istəmir. Kilsədəki "etibarlı" insanların vicdansızlığı ucbatından hər gün 5 milyon dollardan çox pul itiririk! Pulumuzun 95%-ni öz rahatlığımıza, proqramlarımıza və ailə əyləncəmizə xərcləyirik, eyni zamanda isə digər ölkələrdəki 250 milyon məsihçi yoxsulluq içində yaşayır. İsa haqqında heç vaxt eşitməmiş bir milyard insan, ya da sizi ötərkən az qala vurduğumuz evsiz barədə isə danışmıram da.
Biz çox günahkarıq. Hamımız. İstisnasız. Biz bunu çoxdan dayandırmalıydıq. Amma mən başqasının əvəzinə üzr istəyə bilmərəm. Öz adımdan üzr istəyirəm. Düşünürəm ki, siz uşaqlıqda kilsəyə getmisiniz və ilk fürsətdə getməyi dayandırmısınız. Ola bilsin, kilsədə kimsə sizə qarşı haqsızlıq edib. Bəlkə də,

biz əvvəlcə sizə ilham vermişik, sonra isə uzaqlaşaraq sizə qarşı biganə olmuşuq. Ola bilsin ki, siz, sadəcə, bizə uyğun deyilsiniz: bəlkə də, pirsinqləriniz, bənövşəyi saçlarınız, döymələriniz var və ya keçmiş məhkumsunuz; ürəyinizdə başa düşürsünüz ki, bazar günü istəyib kilsəyə getsəniz belə, sonra peşman olacaqsınız.

Bağışlayın məni. İsa sizi sevir. O, həmişə ən “səhv” insanların yanında olub. Məsih başqalarının gözdən salmağa çalışdıqları insanlara böyük məhəbbətlə yanaşırdı. Bəs biz nə etmişik? Biz sizə köynək və ayaqqabı geyinməyi şərt qoymuşuq ki, əks halda cənnətə girməyəcəksiniz. Çox təəssüf edirəm.

Bax hirsli olduğunuzu bilirəm. Siz haqlısınız. Uzun müddət sizə qarşı haqsızlıq etmişik. İnsanlar İsa haqqında nəsə eşitməlidirlər, lakin biz bu möhtəşəm şah əsərini çəhrayı lateks boyanın yüzlərlə layları altında basdırmışıq. Əgər sizin Müqəddəs Kitabınız varsa, Matta 23-ü oxuyun. (Əgər Müqəddəs Kitabınız yoxdursa, onu buradan oxuya bilərsiniz: https://ebible.org/azb/) Tapdınızmı? Diqqətlə oxuyun: fariseylər o dövrün “dindar” insanları, möminlərin rəhbərləri idilər. Bu fəsildə İsa onların necə şərəfsiz, bədbəxt və lənətli olduqları barədə yeddi dəfə söyləyir. Halbuki dini rəhbərlər insanların qayğısına qalmalı və onlara rəhbərlik etməli idilər. İsa onlar barədə deyir: *"ağardılmış məqbərələrə bənzəyirsiniz; daxiliniz ölü sümüklər və hər cür murdarlıqla doludur", "gürzələr nəsli"*! Bu barədə burada danışmağa vaxtım yoxdur, amma özünüz oxuyun və görün ki, bu gün biz İsanın sadaladıqlarının hamısını edirik. İsa bizim sizə münasibətimizdən heç cür razı qala bilməz.

Təbii ki, biz özümüzü aldatmağı və hər şeyin qaydasında olduğunu iddia etməyi xoşlayırıq, amma bu belə deyil. Bizə nifrət edirlər.

Ancaq İsaya da nifrət edirdilər. Lakin bu ona görə idi ki, İsa sərt danışırdı və bəzən insanlar Həqiqəti eşitməyi sevmirlər. İsa vəd etdi ki, Onun ardınca

getsək, bizə də nifrət edəcəklər. Amma indi bizə buna görə nifrət etmirlər. Bizə ona görə nifrət edirlər ki, sözümüzlə əməlimiz düz gəlmir; böyük bir yalançı riyakarlar yığıncağıyıq. Əgər İsa kimi olduğumuz üçün bizə nifrət edilsəydi, bu, başqa məsələ olardı, amma bu, heç də belə deyil. Bizim şən ibadət nəğmələrimizin, təmtəraqlı məclislərimizin əsasında nəyin dayandığını çox gözəl görürsünüz və burada nəyinsə çox səhv olduğu sizə aydındır. Sizdən yaxşı olduğumuzu söyləməyimiz istisna olmaqla, başqalarından heç bir fərqimiz yoxdur.

Bu belə olmamalı idi. İsa bizə dul qadınların və yetimlərin qeydinə qalmağı, acları yedirtməyi, xəstələrə qulluq etməyi, məhbusları ziyarət etməyi, məhvə gedənləri xilas etməyi əmr edib. O, düşmənlərimizi sevməyimizi və onlar üçün dua etməyimizi istəyirdi. O, insanların iztirablarına, haqq-ədalət suallarına biganə qalmadı, azmışlara, tənhalara biganə qalmadı. Onun etiraz yürüşlərində iştirak edəcəyini düşünmürəm – Onu daha ciddi məsələlər narahat edirdi. O istəyirdi ki, biz gündəlik deyil, əbədi olana diqqət edək. O, heç vaxt demədi ki, dünyanın bütün ölkələrinə getmək, böyük kilsə binaları tikmək, təriqətlərə parçalanmaq və bahalı maşınlar almaq lazımdır.

Tam əksinə! Bilirəm ki, siz bizə qəzəblənirsiniz və məncə, haqlısınız, amma lütfən başa düşün ki, qəzəbiniz öz təşəbbüsümüzlə gördüyümüz işlərdən qaynaqlanır – siz "kilsəçiliyə" qəzəblənirsiniz. Bunun Məsihlə heç bir əlaqəsi yoxdur; bunlar Onun iradəsi deyil. İsaya qəzəblənməyin! Bu qarışıqlıq Onun istədiyi şey deyil!

Bax, həqiqətən, çox təəssüf edirəm. Sizə əziyyət verən bütün hərəkətlərdə öz payıma görə məsuliyyəti öz üzərimə götürürəm. Amma, bütün dünya ölkələrinin əziz vətəndaşları, hamınıza söz verirəm ki, bir daha belə etməyəcəyəm. Daha bir qəpik belə, xərcləməyəcəyəm. Mən artıq "kilsəçiliyə" və

ya hər hansı başqa rəhbərə, proqrama və ya televiziya şousuna inanmayacağam – yalnız İsa Məsihə və Onun xilasına inanacağam. Buna qərar verəndə azadlıq tapdım və başa düşməyə başladım ki, Allah bizdən indi etdiyimizdən daha çoxunu istəyir və gözləyir. Buna tam olaraq sadiq olmayan insanlara isə artıq kömək etməyəcəyəm.
Bu bədheybəti yetişdirmək üçün əsrlər lazım olub, buna görə də vəziyyət bir gecədə dəyişməyəcək. Ancaq zaman dəyişir və yenilik çoxdan baş verməli idi. Asiyada sunami kimi böyük fəlakətlər var və məncə, daha da çox olacaq. İndi isə dayanıb bunu demək istəyirəm: bu qədər vaxt və pul sərf etdiyim üçün üzr istəyirəm. Amma İsa xilas edir. Həqiqətən. Söhbət heç də kilsədən getmir. Söhbət İsadan gedir. İsa yaşadı, günahlarımız üçün öldü və yenidən dirildi. O Özünün iddia etdiyi Şəxsdir; O bizim qeydimizə qalır. O bizim yeganə ümidimizdir. Bizə yalnız İsa barədə öyrədilən yerlər lazımdır; burada siz nəzarət altında olmayacaqsınız, sınağa çəkilməyəcəksiniz və diqqətiniz yayınmayacaq. Allah bunları bizə nəsib etsin.

Xahiş edirəm, bütün məsihçilərin böyük bir bəla olduğunu düşünməyin. Bəziləri İsaya aid olduqlarını deyəndə həqiqətən səmimidirlər. Qərbdə daha çox problem var; orada bizim rahatlıq, özündənrazılıq var və bu, görünür, bizə xoşdur. Çində və digər ölkələrdə məsihçilər çox ciddidirlər. Hökumətin təqibləri altında olan imanlılar üçün İsadan başqa heç nəyə yer qalmır. Onlar imanları üçün hər gün ölürlər, Məsihə bağlılıqlarına görə ağlasığmaz çətinliklərdən keçirlər. Əsl şəhiddirlər. Məsihə daha çox bənzəmək üçün onlar hər gün özlərində qalan hissəciklərini çarmıxa çəkməyə hazır olan insanlardır. Məsihin iradəsini yerinə yetirmək üçün bütün arzularından əl çəkməyə hazırdırlar. Lazım gələrsə, həbsxanalarda çürüməyə, döyülməyə, hətta ölməyə də

hazırdırlar. Saf sevgi ilə hərəkət edən və heç vaxt təslim olmayan insanlardır. Mən onların ayaqqabılarının bağını bağlamağa belə, layiq deyiləm. Burada da onlar kimi insanlar var və ümid edirəm ki, getdikcə daha da çoxalacaqlar.

Bir kəs məsihçi olduğunu sizə söyləyirsə, ondan “yalnız bazar günləri, yoxsa hər zaman məsihçi” olduğunu soruşun. Müqəddəs Kitabda deyilir: *"Onları meyvələrindən tanıyacaqsınız"* – sözdə və əməldə onlarda iman, dürüstlük və məhəbbət olmalıdır. Məhəbbəti ilə Məsihi nümayiş etdirən bir imanlı tapdığınız zaman ondan İsa haqqında sizə hər şeyi danışmasını xahiş edin. Əgər siz sırf, aydın və əsl Həqiqəti söyləyən bu qorxmaz şəhidləri tanıyırsınızsa, hər şeyi onlardan soruşun. Həqiqəti bilən bir insanla görüşmək təsəvvür edə biləcəyimizdən də çox nadir bir haldır. Daha dinc, rahat həyatı gözləməyin – bu, Müqəddəs Kitabda yoxdur.

Mənə və ailəmə gəlincə isə, biz çox təəssüf edirik. Bundan sonra biz “kilsəçi”liyə yox, Rəbbə xidmət edəcəyik. Belə şəhidlərin çoxunu mümkün qədər birləşdirməyə çalışacağıq və Məsihin iradəsini yerinə yetirməyə başlayacağıq. Əgər nə vaxtsa sizinlə görüşsəm, xahiş edirəm, əlinizi sıxmaq və sizdən şəxsən üzr istəmək imkanını mənə verin. Çalışacağam, söz verirəm. Düşünürəm ki, eyni hissləri yaşayan daha çox insan var, buna görə də bu barədə daha çox eşitməyə başlasanız, təəccüblənməyin.

Mənə vaxt ayırdığınız üçün təşəkkür edirəm. Ümid edirəm ki, bu sizə faydalı oldu.

Doug Perry

Kansas City, Missuri, ABŞ

www.FellowshipOfTheMartyrs.com

fotm@FellowshipOfTheMartyrs.com

Sözardı: Bu üzr məktubunu bütün dünyaya yaymaqda mənə kömək etmək istəyirsinizsə, lütfən, məktubu başqalarına ötürün, lakin onda heç bir dəyişiklik etməyin. Əgər çap etmək istəyirsinizsə, saytda PDF faylı var. Audio da mövcuddur. Saytdan digər materialları da pulsuz yükləyə bilərsiniz.